*UOT 372.879.6*

***Həsən Arif oğlu İbrahimli***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

# MÜASİR DÖVRDƏ ŞAGİRDLƏRİN TƏLİMƏ MƏSULİYYƏTLİ MÜNASİBƏT TƏRBİYƏSİ ÜZRƏ İŞİN PSİXOLOJİ ƏSASLARI

***Гасан Ариф оглы Ибрагимли***
*докторант по программе доктора философии*
*Азербайджанская Государственная Академия Физического Воспитания и Спорта*

# ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ РАБОТЫ ПО ВОСПИТАНИЮ ОТВЕТСТВЕННОГО ОТНОШЕНИЯ УЧАЩИХСЯ К ОБУЧЕНИЮ В СОВРЕМЕННЫЙ ПЕРИОД

***Hasan Arif Ibrahimli***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan State Academy of Physical Education and Sports*

# PSYCHOLOGICAL FOUNDATIONS OF WORK ON EDUCATION OF RESPONSIBLE ATTITUDE OF STUDENTS TO LEARNING IN THE MODERN PERIOD

**Xülasə**. Şagirdlərdə təlimə məsuliyyətli münasibət tərbiyəsi üzrə işin psixoloji mexanizmi məsuliyyət şüurunun formalaşdırılması, məsuliyyət hisslərinin tərbiyə olunması və müxtəlif hərəkətlərin yerinə yetirilməsi məsələləri ilə bağlıdır. Təlimə məsuliyyətli, şüurlu münasibət dərsdə müsahibələrlə əldə edilmiş elmi, əxlaqi-etik anlayışları, məlumatları, mərdlik, çeviklik, dözümlülük, şərəflilik və s. kimi keyfiyyətləri özündə birləşdirməklə, elmi şüurun formalaşdırılmasına kömək göstərir.

***Açar sözlər**: müasir dövr, məsuliyyətli münasibət, təlimə məsuliyyətli münasibət, psixoloji əsaslar, təlimə məsuliyyətli münasibətin formalaşdırılması*

**Резюме.** Психологический механизм работы по воспитанию ответственного отношения к учебе у учащихся связан с формированием сознания ответственности, воспитанием чувства ответственности и выполнения различных действий. Ответственное, осознанное отношение к обучению включает в себя научные, морально-этические понятия, информацию, смелость, гибкость, выносливость, честь и т.д., полученные посредством собеседований в классе. Сочетание в себе таких качеств, помогает формированию научного сознания.

***Ключевые слова:** современный период, ответственное отношение, ответственное отношение к обучению, психологические основы, формирование ответственного отношения к обучению.*

**Summary.** The psychological mechanism of work to instill a responsible attitude towards learning in students is associated with the formation of a consciousness of responsibility, cultivating a sense of responsibility and performing various actions. Responsible, mindful attitude to learning includes scientific, moral and ethical concepts, information, courage, flexibility, endurance, honor, etc., obtained through classroom interviews. Combining such qualities, he helps the formation of scientific consciousness.

***Key words**: modern era, responsible attitude, responsible attitude to learning, psychological foundations, formation of a responsible attitude to learning.*

Təlimə məsuliyyətli münasibətin psixoloji mexanizminin təlim prosesində nəzərə alınması o deməkdir ki, şagird müəyyən çətinliklə rastlaşdıqda, mənimsədiyi bilik və bacarıqlardan şüurlu

istifadə edə bilsin. Çünki biliklər nəticəsində formalaşmış əqidə şüur aktının məhsuludur.

Təlimə məsuliyyətli münasibət tərbiyəsi üzrə işin komponentlərinin əsasında ilk növbədə intellektual keyfiyyətlər komponenti dayanır və bilikləri şüurlu dərk etmək də buraya daxildir. Şübhəsiz, bu daha çox intuisiya (fəhm) ilə əlaqəlidir. İkincisi, iradi keyfiyyətlərdir ki, buraya iradəlilik, məqsədyönlük, müstəqillik aiddir. Bunlar təlimə məsuliyyətli münasibətin meyarlarıdır. Üçüncüsü, sosial-psixoloji komponentlərdir ki, yoldaşlıq, dostluq, kollektivçilik və s. keyfiyyətlərlə ölçülür.

Təlimə məsuliyyətli münasibət tərbiyəsi üzrə işin psixoloji əsaslarına aşağıdakıları daxil etmək mümkündür:

1. Şagirdlər təlimə məsuliyyətlə yanaşmalıdırlar. Məsuliyyət hissi ailədə, sonradan uşaq bağçasında və ümumtəhsil məktəblərində formalaşır. Bu işdə müxtəlif məzmunlu oyunlar, yürüşlər, təlim tapşırıqları, ekskursiyalar mühüm rol oynayır və tələbələrin təlimə məsuliyyətli münasibətinə müsbət təsir göstərir, onlarda bilikləri və bacarıqları şüurlu mənimsəmək motivləri oyadır. Bu işlə əlaqədar imkanlar getdikcə daha da genişlənir. Lakin belə hallara da rast gəlirik ki, bəzən bir sıra mövzular tədris edilərkən müəllimlər şagirdlərin təlimə məsuliyyətlə yanaşmalarına diqqət yetirmirlər.

2. İlk günlərdən şagirdlərin təlimə məsuliyyətli münasibət fəaliyyətinə cəlb olunmasıdır. Burada nəzəri məlumatlar, anlayışlar baza rolunu oynayır və məktəblilərin gələcək fəaliyyətinə stimul yaradır. Şagirdlərdə borc, vəzifə, məsuliyyət, intizamlılıq kimi hisslər cilalanmalıdır. Məktəblilərdə ətraf aləmdə baş verən hadisələrə diqqət, həssaslıq tərbiyə etmək, həyatda biliklərin və elmin rolunu qiymətləndirməyi öyrətmək lazımdır.

Hadisələrin elmi, siyasi tərəfini, insanlar arasındakı qarşılıqlı münasibətləri görmək, dünyanı dərk etmək, borc hissinin çox mühüm ilkin şərtidir. Vətəndaşlıq borcu, məsuliyyət hissi sadə əxlaqi vərdişlərdən yaranır və şagirdlərin bir şəxsiyyət kimi təşəkkül tapıb formalaşmasında müstəsna əhəmiyyət daşıyır. Vətəndaşlıq borcu Vətən, xalq, millət qarşısında məsuliyyət hissi ilə üzvü şəkildə birləşərək məktəbliləri Vətənin müdafiəsinə, doğma torpağın azadlığı naminə mübarizəyə ruhlandırır. Şagirdlər bilməlidirlər ki, orta məktəbi qurtarandan sonra hansısa ali təhsil müəssisəsinə qəbul olunmazlarsa, 18 yaşında Vətənin müdafiəsinə yollanacaqlar. Böyük şairimiz Səməd Vurğunun sanki bu gün yazılmış məşhur misralarının çağırışı kimi:

Bilsin ana torpaq, eşitsin Vətən,
Müsəlləh əsgərəm mən də bu gündən!

Psixologiyada əsas idrak proseslərinə duyğu və qavrayışı, diqqət, hafizə, təfəkkür, nitq və təxəyyülü daxil edirlər. Bunlar təlimin psixoloji əsaslarını təşkil edərək şəxsiyyətin formalaşmasına şərait yaradır. Hər bir idrak prosesinə təcrid olunmuş halda deyil, vəhdətdə baxılır. Ətraf aləmin dərk edilməsində duyğular mühüm rol oynayır. Duyğuların xassələrinə intensivlik, keyfiyyət, davamlılıq və s. daxil edilir. Duyğuların qanunauyğunluqlarına isə adaptasiya, qarşılıqlı hərəkət, kontrast və sinesteziya aiddir. Bu xassələrin və qanunauyğunluqların hər birinin özünəməxsus xüsusiyyəti var və onlar təlim prosesində mühüm rol oynayır.

Duyğularla yanaşı qavrayış mühüm əhəmiyyət kəsb edir. Məkan, zaman, hərəkət, əşyavilik kimi qavrayışlar var. Qavrayışın sintetik, analitik, analitik-sintetik və emosional tipləri vardır. Qavrayış idrak prosesində, didaktikada ikinci mərhələni təşkil edir.

Diqqət xarici aləmin qavranılmasında mühüm rol oynayır. Hafizə bilik anbarıdır. Şübhəsiz ki, təlim prosesində təfəkkür əsas yer tutur. Təfəkkürün təhlil, tərkib, müqayisə, mücərrədləşdirmə, ümumiləşdirmə, təsnifat, sistemləşdirmə kimi fikri fəallıq priyomları vardır. Bunlar təlimə məsuliyyətli münasibətin formalaşmasında mühüm rol oynayır.

Şagirdlərdə təlimə məsuliyyətli münasibət tərbiyəsi üzrə işin psixoloji mexanizmi məsuliyyət şüurunun formalaşdırılması, məsuliyyət hisslərinin tərbiyə olunması və müxtəlif hərəkətlərin yerinə yetirilməsi məsələləri ilə bağlıdır. Təlimə məsuliyyətli, şüurlu münasibət dərsdə müsahibələrlə əldə edilmiş elmi, əxlaqi-etik anlayışları, məlumatları, mərdlik, çeviklik, dözümlülük, şərəflilik və s. kimi keyfiyyətləri özündə birləşdirməklə, elmi şüurun formalaşdırılmasına kömək göstərir.

Eksperimentə cəlb olunmuş ümumtəhsil məktəblərinin müəllimləri şagird təsəvvürlərini aşkara çıxaran nümunələrə daha geniş yer ayırır, təlimə məsuliyyətli münasibətə aid anlayışların hərəkətlərlə müşayiət olunmasına diqqət yetirirdilər.

Şagirdlərin hərəkət və davranışları, təlimə məsuliyyətli münasibətləri şəxsiyyət meyarı ilə qiymətləndirilir. Məktəblilər təlimə məsuliyyətli münasibətə dair mühakimələrində başqalarının hərəkətlərinə daha çox inanırlar. Əgər bu nümunə realdırsa, millidirsə, vətənlə bağlıdırsa - əhəmiyyətlidir; onlarda milli mənlik şüurunun formalaşmasına zəmin yaradır və həmin anlayışların əsasında əqidə formalaşır. Bu isə şagirdlər tərəfindən Vətənin varlığına, onun tərəqqisinə nikbin münasibətlərlə şərtlənir.

Əqidə elmi, əxlaqi-etik normalar barədə biliklər və bacarıqlar olmaqla yanaşı fəaliyyət stimuludur. Məhz bu cəhətdən təlimə məsuliyyətli münasibət mühüm bir amil kimi meydana çıxır və şagird müxtəlif münasibətlərə reaksiya verir.

Təlimə məsuliyyətli fəaliyyət prosesində şagirdlərin biliklərə, bacarıqlara necə yiyələnmələri, onlardan necə istifadə etmələri aşkara çıxır. Təlimə məsuliyyətli münasibət onların fəal səyləri olub əqli, etik və estetik ideyaların, baxışların və əqidənin şəxsiyyətin zənginliyinin göstəriciləri kimi daxili-mənəvi sərvətinə çevrilir.

Təlimə məsuliyyətli yanaşma nəcib məqsədlərlə ruhlandırılmış Vətən naminə çalışmaqdır. Əqli, əxlaqi, siyasi ideyalar, əqidələr mücərrəd həqiqətlər və prinsiplər olmayıb tələbə səylərinin nəticəsidir, Vətənin rifahı naminə şagird həyatının səadətidir, sevincidir, əzablarıdır, mənəvi zənginlikdir.

Təlimə məsuliyyətli münasibətin tərbiyə olunması üzrə işdə hisslər mühüm rol oynayır. Hisslər insanın inkişafında mövcud olan sabit törənişlərdir. Təlimə məsuliyyətli münasibət şagirdlərin tərbiyəlilik səviyyəsində də başlıca yer tutur. Məktəblilər bu hisslərdən məhrumdurlarsa, təlimə maraqları yoxdursa, onlarda biganəlik, laqeydlik kimi mənfi hallar baş verir.

Təlimə məsuliyyətli münasibətin tərbiyəsində müəllimlərin şəxsi nümunəsi mühüm rol oynayır. Prof. B.H. Əliyev və dos. R.V. Cabbarov [1] müəllimin şəxsiyyətini səciyyələndirərkən diqqəti aşağıdakı cəhətlərə yönəldir: Müəllim müəllim şəxsiyyətinə verilən tələbləri bilməli, özünün peşə biliklərini adekvat qiymətləndirməli, öz əxlaqi keyfiyyətlərinin onun üçün cızılmış dairədən kənara çıxmasına imkan verməməlidir.

Təlimə məsuliyyətli münasibətin tərbiyəsində təlim prosesində daxili stimulun yaradılması mühüm rol oynayır. Bu zaman tələbələri şüurlu fəaliyyətə təhrik edən amil bioloji amildir. Təbiətən tələbələrdə yaddaş, fikirləşmək və düşünmək qabiliyyəti müxtəlif olur. Onlar bir-birindən əqli qabiliyyətlər və praktik fəaliyyətləri ilə seçilirlər. Fiziki və əqli yetkinlik tələbələrdə eyni olmur. Birində ləng gedir, birində olmur, başqa birində sürətlə gedir. Bu baxımdan əqli və fiziki inkişafda irsiyyətin də öz yeri var.

Təbii imkanların (zərif səs, görmə qavrayışının itiliyi, fiziki çeviklik, səs, fenomenal yaddaş, xüsusi əqli hazırlıq) mühüm əhəmiyyət daşıyır. Şübhəsiz ki, bunlar irsiyyətlə bağlıdır. Lakin bəzən elə olur ki, tələbə qabiliyyətlidir, insanlar onun nəyə qabil olduğunu aşkar edə bilmir. Qabiliyyətli tələbələr də çox vaxt öz potensial imkanlarını büruzə verməkdə çətinlik çəkir və ya qabiliyyətlərinin aşkar olmasından utanırlar. Bu baxımdan fizioloji tədqiqatlar təsdiq edir ki, beynin potensial imkanlarından insanlar əqli fəaliyyət zamanı yalnız 10-15 faiz faydalanırlar. Beynin potensial imkanlarından normal istifadə olunarsa, böyük ensiklopediyaları əzbərdən demək mümkün olardı.

Əqli inkişaf tələbələrdə müxtəlif olur. Əlbəttə, bunun müəyyən hissəsi bioloji amillə bağlıdırsa, əksər hissəsi, şübhəsiz ki, ictimai mühit və tərbiyə, təhsil və təlimlə əlaqədardır. Bunu bizim neçə illərdən bəri apardığımız müşahidələr bir daha sübuta yetirir. Elə şagirdlər var ki, bir-birinə yaxın olan fənlərin birindən "əla", "yaxşı", o birindən "kafi", çox vaxt isə "qeyri-kafi" qiymət alır. Biz bunun səbəbi ilə maraqlanarkən məlum oldu ki, müəllimin biri şagirdlərə dərsi səylə keçir, onlarda təlimə məsuliyyətli yanaşmağa daxili stimul yaradır, onlarda maraqları, motivləri və tələbatları hərəkətə gətirir; digəri isə dərsi necə gəldi, sönük keçir, şagirdlərdə tədris etdiyi fənnə həvəs və maraq oyada bilmir.

Nəticədə şagirdlər onun dərslərinə ya hazırlaşmır, ya da laqeyd münasibət bəsləyirlər. Belə faktlar göstərir ki, bu kimi dəyişmələr təlimə, öyrənməyə münasibət bioloji amillərin təsirilə deyil, təlim prosesinin məzmunlu, maraqlı və emosional-iradi təşkili ilə əlaqədardır. Professor-müəllim heyətinin yaxşılığı onun (professor, dosent, müəllim) tədris etdiyi fənnin metodikasını, məzmununu dərindən bilməsi ilə əlaqədardır.

Böyük alman pedaqoqu A. Disterveqin qənaətincə "pis müəllim həqiqətləri şagirdlərə öyrədir, yaxşı müəllim həqiqətləri onlara tapdırır".

Bu, bir həqiqətdir ki, bəzi şagirdlər dərslərdə qeyri-fəal olurlar. Tanınmış rus psixoloqu S.L. Rubinşteynin qeyd etdiyi kimi, "Xarici amillər tələbələrin psixologiyasına təsir edir. Xarici təsir, xarici hərəkət bir-birinə əks olsa, onda tələbənin fəallığı neqativ səciyyə daşıyar. O, müəllimin izahına, şərhinə qulaq asmır, yazmır, digər tələbələrə mane olur. Nəticədə təlim prosesində hər bir tələbədə müəyyən subyektiv həyəcanlar yaranır və bu da öz növbəsində onun idrak fəallığına mənfi təsir edir. Məhz bu psixoloji həyəcanlar şəxsiyyətin inkişafının daxili amilləri adlanır" (2, s. 135).

İşin mahiyyəti də ondan ibarətdir ki, yalnız tələbənin təlimə daxili müsbət əhval-ruhiyyəsi onun idrak fəallığına xidmət göstərir. Belə bir əhval-ruhiyyə yoxdursa, tələbə, adətən təlimə laqeyd münasibət bəsləyir və onda əqli cəhətdən qeyri-fəallıq yaranır. Belə hallarda müxtəlif tədbirlər (hədə, cəza və s.) müsbət nəticə vermir. Hərtərəfli, ahəngdar inkişaf, mənəvi dəyərlər təkidlə, cəza ilə, hədə ilə əldə edilə bilməz. Həqiqi mənəvi dəyərlər o vaxt şagirdlərdə formalaşır ki, onlar özləri biliklərə, elmə, incəsənətə yiyələnməyə çalışırlar.

Şagirdlərdə təlimə müsbət əhval-ruhiyyə formalaşdırmaq və onlarda idrak fəallığını təmin edən daxili stimulları oyatmaq və hərəkətə gətirmək hər müəllimin qarşısında mühüm vəzifə kimi durur. Şübhəsiz, bu vəzifələrin yerinə yetirilməsi mümkündür. Həmin inam ondan irəli gəlir ki, şagirdin bu və ya digər subyektiv həyəcanları xarici təsirlərə (müəllimlərin, yoldaşlarının) məruz qalır. Bu bir həqiqətdir ki, şagirdlərə təlimə məsuliyyətli münasibətin yaradılmasında müəllimin rolu böyükdür. Akademik A,X. Mirzəcanzadə bu xüsusda yazırdı: "Təlim prosesində yalnız şagirdin müəllimlə görüşü yox, bir də onların bir-birini anlaması əsas şərtdir. Müəllimlə şagirdin açıq ürəklə danışması, sərbəst fikir mübadiləsi çox şey öyrədir» (3, s. 227).

Təlimə məsuliyyətli münasibət şagirddən sistemli şəkildə dərsdən üzrlü səbəb olmadan qalmamağı, məşğələlərdə diqqətli olmağı, verilən bilikləri öz "malına" çevirməyi tələb edir. Biliklərə yiyələnmə fasiləsiz proses olmalıdır. A. Rubinşteynin aşağıdakı sözləri bu baxımdan səciyyəvidir. Diqqət yetirək: "Əgər bircə gün öyrənmirəmsə - bunu özüm hiss edirəm, əgər iki gün öyrənmirəmsə, bunu mənə yaxın olanlar hiss edirlər, əgər üç gün öyrənmirəmsə - bunu hamı bilir" (2).

Xarici təsirlər düzgün təşkil edilirsə, şagirdlərin əhval-ruhiyyəsini və subyektiv həyəcanlarını idarə etmək mümkün olar.

Başqa sözlə, bu və ya digər didaktik metod və priyomlardan təlim prosesində istifadə edərkən müəllim onlara emosional istiqamət verməli və təlim materialını məktəblilərin başa düşmələrinə şərait yaratmalı, təlimə daxili əhval-ruhiyyə oyatmalıdır. Şübhəsiz, bu zaman hər bir şagirdin şəxsi keyfiyyətləri, təlimə məsuliyyətli münasibəti başlıca rol oynayır. Çünki insanın fəaliyyət sahəsinin hansı tərəfini götürsək, orada onun fəaliyyətinə münasibətinin əks olunduğunu görərik. Bir halda insan öz fəaliyyətini həvəslə, səylə yerinə yetirəcək, işindən zövq alacaq.

Başqa bir halda fəaliyyətin oyadıcı təsiri neqativ vəziyyət yaradır – nəticədə insan tapşırığa könülsüz əməl edir. Münasibətdə, fokusda olduğu kimi, xarici təsir və bu təsirlərlə yaranan fərdin subyektiv həyəcanları öz əksini tapır və nəticədə insanların bu və ya digər fəaliyyətə müsbət, neytral və mənfi əlamətləri aşkara çıxır.

Münasibət anlayışı insanlara müxtəlif əşyalar arasında qarşılıqlı əlaqələrlə bağlıdır, ümumi və məzmununa görə genişdir. Şəxsi planda o ən müxtəlif formalarda özünü göstərə bilir. Münasibət şagirdlərdə, motivlərdə, maraqlarda və s. təzahür edir. Münasibətin qeyd olunan formalarda təzahürü fəaliyyətin stimullaşması ilə səciyyələnir. Təlim prosesində şagirdlərin bilikləri mənimsəmə tələbatı olmalıdır. Tələbat hər cür fəaliyyətin ən birinci, ilkin stimuludur. Tələbatlarını ödəməyə çalışmayan insan heç nə edə bilməz.

Tələbat nədir? Tələbat insanın xüsusi psixi vəziyyətinin ifadəsidir və nəyinsə çatışmaması ilə əlaqədardır. Hələ vaxtı ilə ingilis filosofu və pedaqoqu Con Lokk yazırdı ki, tələbata ilk duyum insanın çatışmayan bir şeyə narahatlıq hissində özünü büruzə verir (4, s. 195). Ümumi görünüşdə bu tələbat subyektlə bağlıdır. Bu isə insan fəaliyyəti üçün çox zəruridir və insanı fəaliyyətin, fəallığın müəyyən pilləsinə qaldırır. Tələbat əsas münasibət olmaqla onu mənimsəmənin konativ (latın sözü konativ - cəhd deməkdir) tendensiyaya yiyələnməsidir. "Tələbatlar insanın konkret həyat şəraitindən asılılığını ifadə edən və onun bu şəraitdə aktivliyini şərtləndirən

özünəməxsus psixi halətdir. Burada tələbatların üç xüsusiyyəti ifadə edilmişdir: a) tələbatlar insanın özünəməxsus psixi halətidir; b) tələbatlar insanın konkret həyat şəraitindən asılılığını əks etdirir; c) tələbatlar insanın konkret həyat şəraitində aktivliyi şərtləndirir" (5, s. 116-117).

Ehtiyacın narahat, həyəcan keyfiyyətləri kimi çıxış edən tələbat insan psixikasında müxtəlif şəkildə əks olunur. Onlar dərk olunan və dərk olunmayan ola bilərlər. Şübhəsiz ki, bu kimi məsələləri şərh etmək bizim məqsədimizə daxil olmadığından şagirdlərin biliklərə yiyələnmələrindən, təlimə məsuliyyətli münasibətindən söz açırıq. Bunlar isə idrak tələbatları ilə ödənilir. Bütün bunlar təlim materiallarının şüurlu mənimsənilməsini təmin edir.

Şagirdin təlimə, elmə, öyrənməyə ehtiyacı yoxdursa, bir qayda olaraq onda əqli fəallıq, təlimə məsuliyyətli münasibət yaranmır. Müəllim dərsdə təlim materialını şərh edir, faktlara, nümunələrə əsaslanıb elmi məsələləri aydınlaşdırır. Tələbə isə bu vaxt qonşu parta arxasında əyləşən yoldaşı ilə söhbət edir və ya qeydlər aparmır, əksinə, partanın üstünü yazır, yaxud da şəkil çəkir. O öz aləmindədir. Birdən görür ki, müəllimin nəzərləri ona tuşlanmışdır. Müəllim ona irad tutur. Lakin məktəbli nəticə çıxarıb müəllimi dinləmək əvəzinə özünə haqq qazandırır.

Gürcü psixoloqu V.N. Uznadze " Tərbiyənin əsas faciəsi" adlı maraqlı bir məqalə dərc etdirmişdi. Həmin məqalədə deyilir: "Böyüklər gələcəkdən çox-çox uzaq olan uşaqlara nisbətən təlimin məqsədini yaxşı bilirlər. Lakin bunu hələ uşaqlar lazımi səviyyədə anlaya bilmirlər. Uşaq gələcəklə deyil, bu günlə, bu günün romantikası ilə, emosiyası, həyat sevinci ilə yaşayır. Uşaqları oxumağa məcbur etməklə, yaşlılar gələcək naminə onların bu gününü qurban verirlər. Məhz bunun əsasında da məktəblə uşaq, məktəblə ailə arasında müxtəlif konfliktlər, ziddiyyət və münaqişələr yaranır. Uşaqda belə bir inam əmələ gəlir ki, o valideynləri üçün, hər hansı bir adam üçün oxuyur, yalnız özü üçün oxumur. Müəllim xəstələnəndə uşaqlar sevinirlər. Ona görə ki, dərs olmayacaq. Tərbiyədə faciə də budur" (6, s. 347).

Böyük psixoloqun təxminən 90 il bundan əvvəl dediyi həmin fikirləri indiki zamanda şagirdlərə də şamil etmək mümkündür. Çünki valideynlərin əksəriyyəti övladlarının təhsil almasına çalışır. Bəz şagirdlər isə, günün tələblərindən çıxış edərək daha çox pul qazanmaq istəyir. Pula hərislik isə hər şeyi yaddan çıxarır. Yuxarı siniflərdə təhsil alan bəzi oğlan və qızlar şagird olduqlarını unudur, yaxşı oxumur, bu səbəbdən təlimdə yetirmirlər.

Dərsdən qalma, təlimdə qeyri-kafi qiymət alma şagirdlərin təlimə marağını öldürür. Şagirdin birində həvəs, maraq yoxdur, o birində isə öz müvəffəqiyyətinə biganəlik var. Üçüncüsündə inam olmur. Odur ki, ilk növbədə şagirdlərin idrak tələbatını formalaşdırmaq, materialı maraqlı, emosional şərh etmək lazımdır. Şagirdlərdə idrak fəallığına daxili stimulu necə hərəkətə gətirmək olar?

Məktəblilərdə təlimə məsuliyyətli münasibət, bilikləri dərindən mənimsəmə tələbatı yaratmaq üçün müəllimin süni şəkildə biliklə biliksizlik arasında əlaqəni bərqərar etməsi, təlim materiallarının problemli şərhi zəruridir.

Məhz problemli şərh zamanı müəllim tələbənin təfəkkürünü oyadır, onu hərəkətə gətirir, şərh etdiyi materiala münasibətdə şagirdlərdə heyrət, təəccüb yaradır. "Elmi-texniki tərəqqi şəraitində mənimsəmənin Arximed lingi hafizə deyil, ancaq və ancaq təfəkkür ola bilər … Məktəbi yaddaş (hafizə) məktəbindən ağıl və hiss məktəbinə çevirmək lazımdır" (7, s. 8).

Müəllim yaxşı bilir ki, təfəkkür heyrətdən başlayır. Bu zaman əqlin çırağı müqayisədən istifadə etmək müsbət nəticə verir.

Böyük çex pedaqoqu Y.A. Komenski yazırdı: "Bilin ki, ancaq analiz və sintezi daim tətbiq etmək vasitəsilə, siz söz labirintinin bir başından o biri başına gedə və udulub məhv olmaya bilərsiniz. Hər hansı bir xəfə döngəyə düşmüş olsanız, analiz heç bir şeyi Sizin diqqətinizdən yayınmağa imkan verməz. Sintez isə sizi yenidən (geniş) fəaliyyət sahəsinə gətirib çıxarar. Əgər müqayisə çırağı da bunlarla birləşdirilsə, harada olsanız Sizin (həmişə) işığınız olacaqdır" (8, s. 292).

Şagirdlərin idrak fəaliyyətini oyatmaq, onlarda təlimə məsuliyyətli münasibətin tərbiyə edilməsində tədris maraqları mühüm rol oynayır. Təlim, öyrətmə prosesi şagirdləri özünə cəlb etməli, onların həyatını arzu olunan formaya yönəltməlidir. Tədris maraqları tələbatlar əsasında inkişaf edir. Bu stimulun mahiyyəti nədən ibarətdir? Maraq emosional tələbat olub motivasiya

mərhələsini keçmiş və insan fəaliyyətinə əyləncəli səciyyə verən prosesdir. Şagirdlərin idrak fəaliyyəti maraqlara əsaslanırsa, onda təlim prosesi sərbəst, asan və diqqət çəkən olur. Belə halda məktəbli zahiri təsirə, oyanışa məruz qalmır, özünün daxili tələbi, şüurlu fəaliyyəti və arzusu ilə təlimlə bağlanır. Məhz buna görə də şagirdlərdə biliyə, öyrənməyə həvəs oyatmaq lazımdır. Deməli, öyrənmək təlimə məsuliyyətli münasibəti tərbiyə etmək üçün daxili stimul olmalıdır.

Şagirdlərdə təlimə, bilikləri mənimsəməyə marağı hansı yollarla oyatmaq mümkündür? Maraq özlüyündə tələbatın özünəməxsus bir forması olduğundan onun formalaşması üçün biliklərə tələbat tərbiyəsində istifadə olunan metod və priyomlardan istifadə edilir. Bunun üçün yeni materialı öyrədərkən ziddiyyətlərin yaradılmasına, parlaq nümunə və faktlardan istifadəyə, nəzəri ümumiləşdirmələrə, materialın düzgün və əsaslı şərhinə müraciət olunur. Bu kimi metod və priyomların tətbiqinin səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, onlar şagirdlərdə müvəffəqiyyət sevincinin yaranmasına, öz güclərinə, biliklərinə inam, rastlaşdıqları çətinlikləri aradan qaldırmaqda kömək etməlidir. İdrak tələbatının emosional prosesinin çalarları burada özünü göstərir və onların maraqlara çevrilməsinə səbəb olur. Tələbat və maraqlar əsasında təlim motivləri formalaşır. Maraq tələbatın emosional çalarlarıdırsa, motiv tələbənin təlimə, tədrisə elə subyektiv münasibətidir ki, onun əsasında qarşıya qoyulmuş şüurlu məqsəd dayanır. Motivlərdə məqsəd konkretləşir və tələbə tədris fəaliyyətinin nəticəsini gözləyir. Təlim motivləri həm yaxın şəxsi məqsədləri, məsələn, semestrin, tədris ilinin müvəffəqiyyətlə başa vurulması, həm də daha uzaq məqsədi, ali məktəbi bitirmək, həyatda layiqli yer tutmaq və s. əhatə edə bilər. Şəxsi və ictimai planda motivlər təlimi stimullaşdıran böyük qüvvədir. Bunları müdafiə etmək və inkişaf etdirmək, onlardan eqoistlik ünsürlərini xaric etmək lazımdır.

Şagirdləri əmək fəaliyyətinə hazırlayan, onlarda fəal həyat mövqeyinin formalaşmasına təkan verən, onlara ictimaiyyət arasında, habelə işlədiyi müəssisədə nüfuz gətirən ən qüdrətli vasitə təlimə məsuliyyətli münasibətin tərbiyə edilməsidir. Dörd illik tədris müddətində şagird yaxşı oxuyubsa, məktəbin ictimai həyatında fəal iştirak edibsə, tapşırılan hər hansı bir işi layiqincə yerinə yetiribsə, imtahanları tələb olunan səviyyədə veribsə, deməli, belə şagirddə təlimə məsuliyyətli münasibət yaranmışdır. O, bütün ömrü boyu tapşırılan işə məsuliyyətlə yanaşacaq, həyati hadisələrə qarşı laqeyd olmayacaqdır.

Şagirdlərdə təlimə məsuliyyətli münasibətin formalaşdırılmasında, təlimə düzgün münasibətdə əxlaqi (mənəvi) amil də mühüm rol oynayır. Ümummilli Lider Heydər Əliyev Azərbaycan gənclərinin birinci forumundakı çox məzmunlu və parlaq nitqində haqlı olaraq deyirdi: "Nə qədər var-dövlət olsa da, nə qədər pul olsa da, nə qədər zənginlik olsa da, mənəviyyat olmayan yerdə heç bir şey ola bilməz" (9, s. 19)

Deyilənlərdən aydın görünür ki, şagirdlərin idrak fəallığını stimullaşdırmaq işində müəllimin onların fikri fəallığına təsiri ilə yanaşı, həm də daxili, emosional-psixoloji sahələrinə də təsiri vacibdir. Müəllim ustalığı ondan ibarətdir ki, pedaqoji təsirin bu istiqamətinin üzvi vəhdətini yaratmaqdır, əqli-müsbət emosional olanı həm xarici, həm də daxili təsirləri vahid istiqamətdə hərəkətə gətirməkdir.

Yuxarıda deyilənlərdən görünür ki, şagirdlərdə təlimə məsuliyyətli münasibətin səmərəli şəkildə formalaşdırılması üçün ilk növbədə bu işin nəzəri məsələlərini bilmək son dərəcə vacibdir. Problemin pedaqoji-psixoloji əsaslarından xəbərdar olmaq tərbiyə işinin məqsədyönlü aparılması üçün əlverişli mənəvi və psixoloji mühit yaradır. Müəllim-tələbə münasibətləri yüksək səviyyədə qurulur.

**Problemin aktuallığı**. Təlimə məsuliyyətli münasibətin tərbiyə olunması istiqamətində respublikamızda az tədqiqat aparılıb.

**Problemin yeniliyi**. Şagirdlərdə Təlimə məsuliyyətli münasibətin tərbiyə olunması diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti**. Məqalə doktorantlar və magistrantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat**

1. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi. Bakı: Təhsil, 2008, 136 s.
2. Рубинштейн С.Л. Основы обшей психологии. М., 1946, 704 с.
3. Mirzəcanzadə A.X. İxtisasa giriş. BDU-nun nəşri, 1990, 367 s.
4. Локк Д. Избранные педагогические сочинение. М., 1938, 375 с.

5. Talıbov Y.R. Tələbələrlə müstəqil işin təşkili. Bakı: 1981, 29 s.
6. Узнадзе В.Н., Психологические исследования. М., 1966, 452 с.
7. Əhmədov B.A. Düşüncə, düşüncə, yenə də düşüncə, //Azərbaycan məktəbi, 2000, № 5, 32-37 s.
8. Komenski Y.A. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1961, 340 s.
9. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 143 s.

**E-mail**: hasan.ibrahimli@sport.edu.az
**Rəyçilər**: *ped.elm.dok., prof.* **A.N. Abbasov**,
*ped.ü.fəls.dok.* dos. **E.R. Hüseynova**
**Redaksiyaya daxil olub:** 19.09.2023